# 18 SENTYABR - MİLLİ MUSİQİ GÜNÜDÜR

***Milli musiqimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur***



18 sentyabr. Bu gün xalqımız üçün böyük bayram günüdür. Bu gün dahi Ü.Hacıbəyovun doğum günüdür. Xalqımız bu günü Milli Musiqi günü kimi qeyd edir. Çünki milli musiqimiz, mədəniyyətimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur. Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 18 sentyabr tarixli Fərmanı ilə bu gün ölkə miqyasında keçirilir. Bu gün Azərbaycan peşəkar musiqi sənətinin banisi, Şərqdə ilk operanın müəllifi, dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü ilə bağlıdır.

İstəkli oxucu Milli Musiqi günümüz barlı- bəhrəli payız gününə təsadüf olunduğundan, elə sizə bu payız günündə ziyalı ailəsində dünyaya göz açan, muğam sənətində həm xanəndə, həm də pedaqoq kimi tanınan Şəmsi Kəlbəcərli haqqında qısa da olsa söz açmaq istəyirəm.

İnsan ömrünün səhifələrini vərəqləyərkən, onun həyat salnaməsi göz önündə canlanır.İnsandır yaraşıq verən cahana. Bəli, mən bu yazımda cahana yaraşıq olan insanlardan biri - Şəmsi Kəlbəcərlidən söz açacağam.

Muğam... Xalqımızın ən qədim, ən sehirli musiqisi... O muğam ki, uca xalqımızın həm kədərli, həm də xoş günlərində qəlblərə məlhəm olub, öz sehirli aurası ilə insana güc-qüvvət verib.

Yaradıcılığının əsas qolu muğam sənəti ilə bağlı olan Şəmsi Kəlbəcərli, Kərim İmanovun ailəsində Kəlbəcər rayonunun Zivel kəndində dünyaya göz açıb. O, hələ çox erkən yaşlarından musiqiyə maraq göstərmişdir.Şəmsi Kəlbəcərli orta məktəb illərində müxtəlif muğam müsabiqələrində öz istedadını nümayiş etdirmiş və doqquz yaşında isə Bakı şəhərində keçirilən musiqi festivalında doğma yurdu Kəlbəcəri təmsil edərək birinci yerə layiq görülmüşdür.İlk musiqi təhsilini Tərtər şəhər beşillik uşaq musiqi məktəbinin səs muğam sinfində almış və oranı müvəffəqiyyətlə bitirmişdir. Hərbi xidmətini başa vurduqdan sonra Şəmsi İmanov Asəf Zeynallı adına Bakı Musiqi Kollecində musiqi təhsilini davam etdirmək qərarına gəlir. Musiqi Kollecində Respublikanın xalq artisti, Professor, tanınmış muğam ifaçısı Arif Babayevdən dərs almışdır. Musiqi təhsilini başa vuran Şəmsi İmanov ilk pedoqoji fəaliyyətə Goranbor rayonunun, Dəliməmmədli şəhər incəsənət məktəbindən başlamışdır.

On ildən çox pedoqoji fəaliyyəti dövründə muğam ifaçılarının yetişməsində böyük rolu olmuşdur Şəmsi Kəlbəcərlinin. O, Azərbaycan musiqisinin inkişafına təkan vermişdir. Dəyərli, nüfuzlu insanlar digərlərinə nümunə olaraq həyatda parlaq, silinməz izlər qoyurlar. Elə muğam ifaçıları sırasında xüsusi hörmətə, nüfuza malik olan Şəmsi müəllim kimi... Şərəfli , ləyaqətli həyat və fəaliyyət yolu keçmiş insanların, xalqın, inam və etibarını qazanmış sənətçimizin ömür yoluna nəzər saldıqca fərəh, sevinc, qürur hissi duymamaq mümkün deyil. Bu dünyada dəyərli, qiymətli, qibtə ediləsi nə varsa onu Allah yaradıb.

Şəmsi müəllimin keçdiyi həyat yoluna, sənət yoluna nəzər saldıqca nəsillərə örnək bir insanın yüksək insani keyfiyyətlərinin şahidi oluruq. Soruşa bilərsiniz ki, Şəmsi müəllim haqında ağızdolusu ilə yazmağımın səbəbi nədir; nədir məni bu qədər xoş notlara kökləyən? Məhz bu izaha görə də, yazımın bu yerində bir haşiyəyə çıxmağa məcburam. Yeri gəlmişkən qeyd edim ki, mən Şəmsi Kəlbəcərlini az müddətdir tanıyıram. Bir il öncə onun sənət yollarına, yaradıcılığına səyahətim zamanı Şəmsi müəllim haqqında keçirdiyim sorğu zamanı, onu tanıyan insanların söylədiyi fikirlərdən, onun vətənpərvər, xalqını sevən, pozitiv ruha köklənən sənətçi, gözəl qəlb daşıyıcısı olduğunun canlı şahidi oldum. Şəmsi müəllimin ifalarından doymaq mümkün olmadığı kimi söhbətindən də doymaq mümkün deyil. Bunu ondan müsahibə alan zaman müəyyən etdim. Fikrini çatdırmaqda çox mahirdir Şəmsi müəllim. Danışarkən heç bir jurnalist müdaxiləsinə ehtiyac qalmır. Bəli o, sinəsini açıb həm sənət yollarından həm də zəngin, keşməkeşli həyat yolundan həvəslə danışdı, biz də dərgimizin səhifələrində bu maraqlı söhbətə səxavətlə yer ayırdıq. Mən də bir media nümayəndəsi olaraq belə istedadlı, ecaszkar səsi, bənzərsiz ifaları ilə tamaşaçını öz sehri altına ala bilən və yüksək səhnə mədəniyyəti ilə minlərlə insanların sevgisini qazanan, sənətin zirvəsinə yüksələn dəyərli sənətçimiz haqqında az da olsa yazmağı özümə borc bildim.

Şəmsi Kərim oğlu İmanov fitri istedada, məlahətli səsə, təsirli nəfəsə və güclü zənguləyə malik bir müğənnidir. Səsə dinamik boyalar verməklə, bir neçə forma və mərtəbədə şaqraq zəngulələr vurmaqla seçilən Şəmsi Kəlbəcərliyə çoxları həsəd aparır. Bizimsə Şəmsi müəllimə bir tövsiyəmiz var.Şəmsi müəllim, - Boğazınızı qoruyun, orda Allah əmanəti var...

Ruhun mənəvi qidası sayılan incəsənət aləminin dəyərli nümayəndəsi Şəmsi Kəlbəcərli hər kəsə nümunə göstərilən məsuliyyətli ailə başçısı, ailədə aparıcı qüvvə, ailə qanunlarının müəllifidir desəm yanılmaram. Muğam zirvəsini fəth edən ifaçımız, gözəl valideyn olmaqla yanaşı, eyni zamanda həm də mehriban babadır.

Mənalı ömür yolu hər bir insana şanşöhrət gətirir.Mənalı ömür yolu keçən insanın həyatda izi qalır. O iz ki, özündən sonrakı nəslə örnək olur, onu tanıyan hər kəs onunla fəxr edir. Ömrünün yarıdan çox ilini muğam sənətinə sərf edən Şəmsi müəllim, hər kəsin könül dünyasında bir sarı sim oxuyur. Tanrı o simə dəyməsin. Doğrudan da mən bütün hiss və duyğularımla deyə bilərəm ki, Şəmsi müəllim, Sizin bütün şüurlu həyatınız, düşüncəniz, ruhunuz muğam üstə köklənib.Belə deyək də sənət xoşbəxt olar siz ifa etsəz...

Musiqi xəzinəsinin unikal səs sahibi, çoxlarının hörmət və ehtiramını qazanan, dəyərli sənətçimiz Şəmsi Kəlbəcərli, sizi Milli Musiqi Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, sizə uzun ömür, san sağlığı, yeni sənət uğurları arzu edirik.Şans qapıları həmişə üzünüzə açılsın.

***Qənirə MƏMMƏDOVA,***
***“Doğru söz” qəzetinin xüsusi müxbiri,***
***AJB-nin üzvi***